Anım

# Hacı Məmmədov sənətinin qüdrəti



**Azərbaycan ifaçılıq sənətinin görkəmli nümayəndəsi, gözəl tarzən, xalq artisti və məşhur həkim-cərrah Hacı Məmmədovun anadan olmasının 90-cı ildönümüdür**

Bu qədim musiqi alətinin hər pərdəsində gah hicran inləyir, gah vüsal səslənir. Yəqin onu yaradan usta ruhu ilə ilk dəfə baş-başa qaldığı anda bu cür köklənib. Zaman-zaman ustad tarzənlərin barmaqları ilə dilə gələn bu musiqi alətində həm kədər, həm də sevinc var. Çünki hər tarzən ifa etdiyi nəğmələrə özünəməxsus könül çırpıntılarını köçürüb. Ölməz tarzən Hacı Məmmədovun mizrabı ilə tamam ayrı bir ecazkarlıqla səslənib o duyğular. Onun mizrabından qopan bənzərsiz musiqiləri dinlədikcə insan zamanı da, məkanı da unudur, uca bir sevginin əsirinə çevrilir.

### TARDA KLASSİK ƏSƏRLƏRİN İFAÇISI

Azərbaycan ifaçılıq sənətinin görkəmli nümayəndəsi, gözəl tarzən, xalq artisti və məşhur həkim-cərrah Hacı Məmmədovun anadan olmasının 90-cı ildönümüdür. Ölümündən 29 il keçməsinə baxmayaraq, o bu gün nəinki musiqiçilər və tibb işçiləri, bütün Azərbaycan xalqı tərəfindən hörmət və ehtiramla yad edilir.

Hacı Məmmədov Şamaxı şəhərində anadan olub. Uşaq vaxtlarından tar çalmağa həvəs göstərib və böyük musiqi qabiliyyəti sayəsində hələ 11 yaşında ikən Xalq Çalğı Alətləri Orkestrinə qəbul edilib. 40 ildən çox M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında işləyən H.Məmmədovun şux, oynaq ifa tərzi həmişə diqqəti cəlb edib. O, rus və Qərbi Avropa müəlliflərinin klassik əsərlərinin tarda ilk ifaçısı olub. Hacı Məmmədov özündən əvvəl yaşayıb-yaratmış tarzənləri təkrarlamayan, yeni ifaçılıq məktəbi yaradan solist olub. İnstrumental muğamlarımızın yaşamasında Hacı Məmmədovun xidmətləri hədsizdir. Onun ifasında "Orta Mahur", "Çoban bayatı" və bir çox xalq melodiyaları bü gün də dinləyicilərin yaddaşında yaşayır.

### CƏRRAH BIÇAĞI İLƏ MİZRAB

Tarın ecazkar səsinin sehrinə düşən Hacı Məmmədov Konservatoriyada təhsilini yarımçıq qoyaraq Azərbaycan Tibb İnstitutuna daxil olub. Çoxları onun bu addımını təəccüblə qarşılayıb. Amma gəncin qəlbində sənətinə olan məhəbbətlə yanaşı sevdiyi qıza olan sədaqəti də yer almışdı. Sevdiyi qızın valideynləri musiqiçiyə qız vermək istəmədikləri üçün gənc Hacı məcburiyyət qarşısında qalaraq Tibb İnstituna daxil olur. H.Məmmədovun Tibb İnstitutuna daxil olması Üzeyir Hacıbəyovun heç də ürəyincə olmayıb. Bu cür istedadın itib-batacağından təlaşlanan böyük bəstəkar Tibb İnstitutunun o vaxtkı rektoru Zülfüqar Məmmədova zəng vuraraq, tarzənin məktəbdən xaric edilməsini istəyir. Lakin qarşı tərəf Üzeyir bəyin bu istəyini yerinə yetirmir və H.Məmmədov təhsilini davam etdirir. H.Məmmədov üç il 5 saylı xəstəxananın baş həkimi vəzifəsində çalışıb. Lakin bununla yanaşı o, tarı da əlindən yerə qoymayıb. Cərrah bıçağını mizraba çevirən H.Məmmədov 1957-ci ildə Azərbaycanın Əməkdar artisti, 1963-cü ildə isə Xalq artisti fəxri adına layiq görülüb.

### SƏNƏTİN ÖLMƏZ GÜCÜ

Bakı şəhər mədəniyyət idarəsi xalq artisti Hacı Məmmədovun xatirəsini əziz tutaraq, Bakı şəhərində iki ildən bir gənc ifaçılar arasında Hacı Məmmədov adına müsabiqə keçirir. Hazırda Bakıda və Şüvəlanda Hacı Məmmədovun adını daşıyan küçələr, Şamaxıda isə həm küçə, həm də musiqi məktəbi var. Hər il musiqi məktəblərində təhsil alan gənc tar ifaçıları arasında respublika müsabiqəsi keçirilir ki, bu da H.Məmmədovun adı ilə bağlıdır.

Aprelin 23-də Beynəlxalq Muğam Mərkəzində ifaçılıq sənətinin görkəmli nümayəndəsinin 90 illiyi ilə bağlı yubiley gecəsi keçiriləcək. Musiqi ictimaiyyəti milli musiqi sənətimizin korifeyini məhəbbətlə yad edəcək və tamaşaçılar sənətin ölməz gücünə bir daha əmin olacaqlar.

Təranə MƏHƏRRƏMOVA